

Oktay ABDULLA

# VARMIŞ

Dedilər sevənlər bəxtəvər olur,
Bilməzdim aşiqin cəfası varmış.
Yaxından, uzaqdan xoş xəbər gəlir,
Nə yaxşı, nə gözəl sədası varmış.

Tellərin, baxışın öyrətdi məni,
Gecəsi, gündüzü söylətdi məni.
Ayrılıq, bu həsrət göynətdi məni,
Cananın, canımda qadası varmış.

Aparır uzağa xəyallar məni,
Kiritməz bu çöllər, səhralar məni.
Öz dərdim dəli tək ağladar məni,
Qəlbimdə ruhumun nidası varmış.

Duyğumun, şerimin təzə sətrisən,
Camalın günəşdi, ayın bədrisən.
Çəmənin, çiçəyin, gülün ətrisən,
Vətənin, bu şərqin səfası varmış.

Mübarək hüsnünə bir deyim əhsən,
Məramın gözəldir, xəyalımda sən.
Sən gülsən, min gülə dəyişmərəm mən,
Oktayın bu gülə fədası varmış.

Kaspi 2019.- 22-24 iyun.- S.23.